# Təbiət vurğunu

***Görkəmli təbiətşünas alim, Azərbaycan ekologiya elminin banisi Həsən Əlirza oğlu Əliyevin anadan olmasının 110 ili tamam olur.***

***Həsən Əliyev 15 dekabr 1907-ci ildə Zəngəzur qəzasının Comərdli kəndində anadan olmuşdur. Azərbaycan Kənd Təsərrüfatı İnstitutunu bitirmişdir. Qısa müddətdə görkəmli torpaqşünas, aqrobotanik və ekoloq kimi tanınmışdır. Böyük Vətən Müharibəsinin (1941-1945) iştirakçısı olmuşdur.***



Azərbaycan SSR Elmlər Akademiyası Torpaqşünaslıq və Aqrokimya İnstitunun elmi işlər üzrə direktor müavini (1944-1949), eyni zamanda Azərbaycan Dövlət Pedaqoji İnstitutunda baş müəllim (1945-1949), Azərbaycan SSR Elmlər Akademiyası Botanika İnstitunun direktoru (1949-1952), Azərbaycan SSR Kənd Təsərrüfatı Nazirinin birinci müavini və Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin katibi (1952), Azərbaycan SSR Elmlər Akademiyasının akademik-katibi (1952-57), Azərbaycan SSR Elmlər Akademiyası Torpaqşünaslıq və Aqrokimya İnstitunda laboratoriya müdiri (1957-1967), Azərbaycan SSR Elmlər Akademiyası Coğrafiya İnstitunun direktoru (1968-1993) vəzifələrində işləmişdir.

Əsas elmi fəaliyyəti torpaqşünaslığın nəzəriyyəsi, ekologiya, botanika, bitkiçilik, təbii ehtiyatların və təbii şəraitin qorunub daha səmərəli istifadə olunması problemlərini, ümumiyyətlə, təbiətşünaslığın müxtəlif sahələrini əhatə edir. Keçmiş SSRİ-də ümumi əkinçilik və təbiəti mühafizə sahəsində görkəmli alim sayılırdı. O Cənubi Qafqaz torpaqlarının əmələ gəlməsinin və coğrafiyasının tədqiqinə, Azərbaycanda Beynəlxalq Bioloji Proqramın işlənib hazırlanmasına böyük əmək sərf etmişdir.

Təbii ehtiyatların tədqiqi, təbiətdən istifadənin elmi cəhətdən əsaslandırılması və onların mühafizəsinin təşkili Həsən Əliyevin elmi və ictimai fəaliyyətinin əsas istiqamətini təşkil etmişdir. Azərbaycan təbiətinin, torpağının və suyunun mühafizəsi sahəsində onun xidmətləri əvəzsizdir. O, cəmiyyətin ekoloji maariflənməsinə, təbiətin mühafizəsi haqqında biliklərin təbliğinə böyük əhəmiyyət verirdi.

Əliyevin "Həyəcan təbili" əsəri (Bakı, 1976, 1982) təbiətin və ətraf mühitin qorunması üçün insanlara ağrılı, hərarətli müraciət, çağırışdır. Əliyev coğrafiya elmləri üzrə bir sıra problem şuralarının sədri və üzvü olmuşdur. Yüksək ixtisaslı kadrlar hazırlanmasında böyük xidməti var. Azərbaycan Respublikası Təbiəti Mühafizə Komitəsinin yaradıcısı və cəmiyyətinin sədri və Azərbaycan Coğrafiya Cəmiyyətinin prezidenti (1975-1990), "Azərbaycan təbiəti" məcmuəsinin baş redaktoru (1975-ci ildən) idi. Həsən Əliyev Yunanıstan (1958), Polşa (1960), ABŞ (1964, 1977), Rumıniya (1966), İsveçrə (1966), Avstraliya (1968), Kanada (1978), Yaponiya (1980), Almaniya (1981) və s. ölkələrdə keçirilmiş beynəlxalq konqreslərdə məruzələr etmişdir.

Azərbaycan SSR Ali Sovetinin (10-11-ci çağırış) deputatı olmuşdur. Lenin , Oktyabr İnqilabı, Qırmızı Əmək Bayrağı, Qırmızı Ulduz, Vətən müharibəsi, Şərəf nişanı ordenləri, SSRİ Elmlər Akademiyasının N. İ. Vavilov adına Qızıl medalı ilə təltif edilmişdir. Azərbaycan Milli Elmlər Akademiyasının Coğrafiya İnstitutu Həsən Əliyevin adınadır. Dünya Universitetinin elm və mədəniyyət üzrə doktoru (ABŞ), İngiltərə Kraliça Biblioqraflar Cəmiyyətinin həqiqi üzvü olmuşdur.

Həsən Əliyev Azərbaycanın hər bir guşəsinə olduğu kimi Qəbələnin təbiətinə də vurğun idi. Onun 1979-cu ildə Qəbələyə səfərini yaxşı xatırlayıram. Görkəmli alim rayon mərkəzində dayanmadan birbaşa Həmzəli kəndindəki Şıx Baba pirinə getmiş, buradakı yaşı min illə ölçülən qara çöhrə ağaclarını tədqiq etmişdi. Alim Qəbələyə hər gəlişində bu ağacları görməyə gedirmiş.

Həsən Əliyev rayon fəallarının yığıncağında təbiətə, onun qorunması probleminə dair söylədiyi dərin məzmunlu və təsirli məruzəsi dinləyənlərin xatirində uzun müddət yaşadı.

Görkəmli alim 2 fevral 1993-cü ildə Bakıda vəfat etmiş, Fəxri Xiyabanda dəfn edilmişdir.

**Qüdrət CƏMALƏDDİNOĞLU.**

# Xalqın əbədiyaşar lideri

11 dekabr 2017-ci il tarixdə Heydər Əliyev Mərkəzində rayon təhsil şöbəsilə birgə Azərbaycan dövlətçiliyinin xilaskarı, görkəmli siyasi və dövlət xadimi, ümummilli lider Heydər Əliyevin əbədiyyətə qovuşmasının 14-cü ildönümü ilə əlaqədar "Azərbaycan xalqının əbədiyaşar lideri" adlı tədbir keçirildi. Tədbir iştirakçıları ilk öncə ulu öndər Heydər Əliyevin mərkəzin foyesindəki abidəsi önünə gül dəstələri qoyaraq dahi şəxsiyyətin ruhuna öz ehtiramlarını bildirdilər.

Mərkəzin direktoru Zərxanım Ağayeva ulu öndər Heydər Əliyevin həyat və fəaliyyəti barədə tədbir iştirakçılarına geniş məlumat verib, onun Azərbaycan xalqı və dövləti qarşısında göstərdiyi misilsiz xidmətlərdən danışıb. Zərxanım Ağayeva çıxışında Heydər Əliyevin qlobal düşüncəli, geniş dünyagörüşlü nəhəng bir siyasətçi olduğunu, onun rəhbərliyi dövründə Azərbaycanın demokratiya və müstəqillik yolunda atdığı uğurlu addımları sayəsində ölkənin hərtərəfli inkişafına nail olunduğunu vurğulayıb.

Rayon təhsil şöbəsinin metodisti Arifə Bayramova dünya şöhrətli siyasi xadim Heydər Əliyevin uğurlu siyasəti fəaliyyətindən geniş bəhs edərək demişdir ki, dünyanın görkəmli dövlət xadimləri arasında ümummilli liderimizin adı həmişə ön sıralarda çəkilir. Arifə Bayramova çıxışında ulu öndər öz həyatını Azərbaycan xalqının azadlığına, firavanlığına həsr etdiyini, onun xalqımızın rifahı naminə yürütdüyü uğurlu siyasətin bu gün də dövlətçiliyimizə töhfələr verdiyini qeyd edib.

Tədbirin sonunda dahi lider Heydər Əliyevin ictimai-siyasi fəaliyyətini əks etdirən sənədli film nümayiş etdirildi, şagirdlər tərəfindən hazırlanan şeir nümunələri səsləndirilib.

Yekunda şəhər 1 saylı tam orta məktəbin şagirdlərinə ulu öndər Heydər Əliyevin ictimai-siyasi fəaliyyəti mövzusunda açıq dərs keçirilib.

**Kəmalə QASIMOVA,**
**mərkəzin işçisi.**

# Qəbələyə qış gəlir

Qış qapının astanasındadır. Əslində bir neçə dəfə Qəbələ



şəhərinə və dağətəyi kəndlərə düşən qar öz xəbərvarlığını edib. Şimaldakı uzaq və yaxın dağlar isə ağ örpəyə bürünüb. Yaşıl meşələrin qışda geyindiyi ağ libas da yurdumuza gözəllik gətirir. Qışın xəbərdarlığı bağbanların işini daha da sürətləndirib. Onlar sərt saxtalar düşüncə bağlardakı işlərini başa çatdırmalıdırlar.

Bir sözlə Qəbələnin qışı da digər fəsilləri kimi gözəl və işli güclüdür.

**«Qəbələ»**

# Peşə təhsilinin inkişafı dövrün tələbidir

Qəbələ Turizm ve Otelçilik üzrə Peşə Tədrisi Mərkəzində peşə məktəblərində peşə təhsilinin inki-



şafı məsələləri mövzusunda tədbir keçirilmişdir. Tədbirdə Azərbaycan Respublikası Təhsil Nazirliyi yanında Peşə Təhsili üzrə Dövlət Agentliyinin peşəyönümü və işəgötürənlərlə əməkdaşlıq şöbəsinin müdiri Eldar Salahov, Qəbələdəki bir sıra otellərin icraçı menecerləri iştirak ediblər. Yığıncağı mərkəzin direktoru Eyvaz Kazımov açaraq bildirib ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Azərbaycan Respublikası Təhsil Nazirliyi yanında Peşə təhsili üzrə Dövlət Agentliyinin yaradılması və fəaliyyətinin təmin edilməsi haqqında" 20 aprel 2016-ci il tarixli Fərmanına əsasən Peşə təhsili üzrə Dövlət Agentliyi yaradılıb və əsasnaməsi təsdiq edilib. Əsasnamədə agentlik qarşısında duran əsas vəzifələr əksini tapıb. Peşə-ixtisas müəssisələrinin maddi-texniki bazasının inkişaf etdirilməsi, davamlı peşə təhsili və təliminin həyata keçirilməsi, rəqabət qabiliyyətli ixtisaslı kadrların hazırlanmasının təmin edilməsi, işəgötürənlərlə biznes əməkdaşlığı çərçivəsində proqramların həyata keçirilməsi agentliyin əsas vəzifələrindəndir.



Tədbirdə iştirak edən otel rəsmiləri peşə məktəb və mərkəzlərində şagirdlərin təlimi və məzunların işlə təmin olunması barədə mülahizələrini tədbir istirakçilari ilə bölüşüblər.

Peşə təhsili üzrə dövlət agentliyinin şöbə müdiri Eldar Salahov qeyd edib ki, ölkə Prezidenti cenab İlham Əliyevin qayğısı sayəsində peşə təhsili ölkəmizdə prioritet sahələrdən birinə çevrilib. Peşə təhsilinin inkişafı üzrə uzun müddətli dövlət proqramların hazırlanması məqsədi ilə müvafiq işlər aparılır. 2020-ci ilə qədər regionlarda müasir peşə-ixtisas təhsilinin bütün standartlarına cavab verən 9 pilot mərkəzin tikilib istifadəyə verilməsi nəzərdə tutulub.

Sonda tədbir istirakçılarını maraqlandıran suallar cavablandırılıb.

**Günel QAZIYEVA,**
**Səhrab Umuyev (foto).**
**"Qəbələ"**

# Oxucularla görüş keçirilib

***Prezidenti cənab İlham Əliyevin 10 yanvar 2017-ci il tarixli Sərəncamına əsasən 2017-ci ilin Azərbaycan Respublikasında "İslam Həmrəyliyi ili" elan edilməsi ilə əlaqədar həmin sərəncamdan irəli gələn vəzifələrin icrasının təmin olunması istiqamətində mədəni-maarif müəssisələrinin qarşısında da müvafiq vəzifələr qoyulmuşdur.***

"İslam Həmrəyliyi ili" çərçivəsində Qəbələ Rayon Mərkəzləşdirilmiş Kitabxanalar Sistemində də bir sıra maraqlı silsilə tədbirlər hazırlanaraq həyata keçirilmişdir. İl ərzində mərkəzi kitabxanada və onun filiallarında "İslam Həmrəyliyi ili - 2017" başlığı altında sərgi-stendlər, oxucu konfransları, biblioqrafik icmallar təşkil olunmuşdur. Xüsusilə kitabxanalarımızda yaradılan və ilin sonuna kimi nümayiş etdirilməsi nəzərdə tutulan sərgilər hər kəsin marağına səbəb olmuşdur.

Silsilə tədbirlərin davamı olaraq mərkəzi kitabxanada "İslam Həmrəyliyi İli 2017- reallıqlar, perspektivlər" adlı oxucu konfransı keçirilmişdir.

Rayon MKS-nin direktoru Anar Rüstəmli tədbiri giriş sözüylə açaraq, Prezident cənab İlham Əliyevin 2017-ci ilin "İslam Həmrəyliyi İli" elan edilməsi haqqında imzaladığı Sərəncamın böyük əhəmiyyət kəsb etdiyini bildirmişdir. O, cıxışında qeyd etmişdir ki, ölkəmiz İslam Əməkdaşlıq Təşkilatı, İSESKO, həmçinin müsəlman ölkələrini birləşdirən digər mötəbər qurumların üzvü seçilərək İslam aləmi ilə qarşılıqlı faydalı münasibətlər qurmuş, qlobal əhəmiyyətli mədəni forumların təşkilatçısı kimi çıxış etmişdir.

Anar Rüstəmli son illər ölkəmizdə müxtəlif dinlərin həmrəyliyi istiqamətində uğurlu siyasət aparıldığını, sovet dövründə dinlə bağlı sərt qadağaların mövcud olduğunu, əvvələr rayonumuzda heç bir məscidin fəaliyyət göstərmədiyi halda hazırda aktiv məscidlərin sayının 30-u ötdüyünü, həmçinin 1 albanxristian məbədində məscidlərlə yanaşı dini ayinlərin icra edildiyini, həmin məscidlərin bir çoxunun, eləcədə kilsənin tarixi-mədəni abidə kimi qorunduğunu xatırlatmışdır.

Mövzu ətrafında çıxış edən MKS-nin əməkdaşları İslam dininin müsəlman ölkələrinin xalqları arasında həmrəyliyin, dostluq əlaqələrinin, əməkdaşlığın inkişafına verdiyi töhfələrdən söz açmış, dünya müsəlmanlarını vahid əqidə ətrafında sıx birləşdirən mütərəqqi bir din olduğu barədə geniş məlumat vermişlər.

**Günel QARAYEVA,**
**mərkəzləşdirilmiş kitabxana sisteminin işçisi.**